*Rəşid Bərgüşadlı müsabiqə elan etdi...*

# Qalibi özü seçəcək

*(Tarix: 24-09-2017, 20:53 Baxış Sayı:359)*

Bu gün 23 ildən sonra müharibə dostlarımla görüşdüm. Bizim o vaxtkı pulemyotçu Samir indiyədək bilmədiyimiz bir hekayəsini danışdı: "Evimizə zəng vurdum: Ata, evə qayıdıram, amma tək deyiləm. Döyüş yoldaşımı da özümlə gətirirəm. Amma bəribaşdan bilmənizi istəyirəm, o, minaya düşüb, bir qolunu və dizdən aşağı bir ayağını itirib. Onun bu halda gedəcək yeri yoxdur. Əgər istəyirsinizsə, mən sizinlə birlikdə yaşayım, onu da öz övladınız kimi qəbul edin. Yoxsa..."



"Mövzu məni elə tutdu ki, bunu bədiiləşdirmək bir qələmin işi deyildi və ona görə də ədəbi müsabiqə elan etmək ehtiyacı duydum".

Bu sözləri Manera.az-a açıqlamasında yazıçı Rəşid Bərgüşadlı deyib.

Yazıçının sözlərinə görə, elan olunan hekayə müsabiqəsinin mövzusu "Müharibə və insan", münsifsə Rəşid Bərgüşadlının özüdür.

O, mətnləri oxucularla birlikdə seçəcək.

Qalib mətnin müəllifinə mükafat olaraq 500 (beş yüz) manat pul veriləcək.

Mükafatlandırma mərasimi 05 yanvar 2018-ci il tarixində olacaq.

**Qeyd edək ki, mətnlər kubatly@mail.ru ünvanında qəbul olunur.**